*Akademik Tarih ve Düşünce Dergisi* *Academıc Journal of History and Idea*
*Cilt:3/Sayı:9/Ağustos /2016* **ISSN:2148-2292.** *Volume:3/Number:9/August /2016*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

# Azərbaycanın Qobustan Qayaüstü Abidələrində Qədim Türk Ailəsinin Dialoq Fəlsəfəsi" (Multikulturalizm Kontekstində)

Xatirə Quliyeva[1]

## XÜLASƏ

Məlumdur ki, bu gün dünyanın müxtəlif regionlarında yaşam fəlsəfəsi kimi cərəyan edən, ideya və mahiyyətcə tarixi təcrübənin davamı olaraq meydana çıxmış, öz elmi izahını "mədəni müxtəliflik", həmçinin "çoxmədəniyyətlilik" kimi tapmış Multikulturalizm - bu ictimai-siyasi, aksioloji və hətta fəlsəfi antropoloji hadisə iriliхırdalı müxtəlif millətlərin, etnik qrupların marağından asılı olmayaraq bəşər yaranandan daim güclü təsirə malik olmuş və bütün cəmiyyətlərin tərəqqisinə gətirib çıxarmışdır. Eyni zamanda insan və əxlaq probleminin müxtəlif aspektlərini əhatə etdiyi üçün çoxmədəniyyətlilik proqramını, əsas da onun qaynaqlandığı dialoq fəlsəfəsini rədd etmək, yaxud bu yaşamı seçməmək mümkün deyildir.

İnsanların belə ciddi "suallarına" cavab verən fəlsəfənin həmişə olduğu kimi qloballaşma adlanan indiki mərhələdə də ən ümdə vəzifəsi cəmiyyəti, tərəddüd və gərginlik içində olan həssas təbəqəni düzgün istiqamətləndirmək yollarını düşünüb tətbiq etməkdir. Bu zaman milli tarixi, ənənəni yeniləmək və naviqasiyalar aləmi ilə "dialoq" qurmaq çox vacibdir. Babalara, atalara, nənələrə oxşamaq, onlar kimi qonşuluq, dostluq, bir-birinin inancına, adət-ənənəsinə, sevincinə, kədərinə şərik olmaq keyfiyyətlərini dirçəltmək öz-özlüyündə elə modern yaşam fəlsəfəsi multikulturalizm ideyalarından çıxış etməkdir.

Belə ki, multikulturalizmi yeni elm olaraq qəbul etdikdə onun qaynaqları ilk insanların tarixinə, mədəniyyətinə gedib çıxır. Ailələr, qəbilələr və davamında kiçik etnik toplumlar və daha sonralar böyük xalqlar və millətlər timsalında formalaşma, təşəkkül prosesi keçirmiş multikulturalizm -çoxmədəniyyətlilik prinsiplərinin izləri hələ yazılı ədəbiyyata qədər mifoloji, həmçinin daş abidələrdə sübuta yetir.

Problemə bu aspektdən yanaşıldıqda tarixi ilk əjdadlarımızın dövrünə bağlı tarixi abidələr, qayaüstü petroqliflərdə, folklor, xalq yaradıcılığı və digər milli-mənəvi qaynaqlarda əksini tapmış qədim türk ailəsinin "dialoq fəlsəfəsi", habelə multikulturalizm ənənələri zəngin elmi mənbə kimi diqqəti cəlb edir.

Təqdim olunan məqalə müasiri olduğumuz illərdə dünyanın çox müxtəlif xalqlarının, millətlərinin, etnik toplumlarının sivil, demokratik, hüquqi inkişaf strategiyasının həllinə, bir planeti bölüşən vahid insan cəmiyyətinin irqindən. dinindən, dilindən. adət-ənənə və s. psixoloji, etnik varlığını xarakterizə edən xüsusiyyətlərindən asılı olmayaraq tolurantlıq şəraitində, azad, bərabər hüquqlu yaşam fəlsəfəsinə nail olunması üçün maarifləndirmə məqsədi daşıyır və eyni zamanda elmi fikirdə "dialoq fəlsəfəsi", mədəni müxtəliflik probleminin öyrənilməsi

[1] *AMEA-nın Fəlsəfəİnstitutunun Etika şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə elmlər doktoru, dosent*
xatire-6262@mail.ru

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

mahiyyətində irəliyə doğru atılmış bir addım kimi əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Azərbaycan, Türk ailəsi, Qobustan qayaüstü abidələr, dialog fəlsəfəsi, multikuklturalizm.

# The Old Turkish Family Structure in Azerbaijan's Gobustan Dialogue Philosophy (in the Context of Multiculturalism)

## ABSTRACT

It is known as a philosophy of life that took place in various regions of the world, ideas and emerged essentially as a continuation of the historical experience, the scientific explanation of the "cultural diversity" and "multiculturalism" is fine as ictimai found Multiculturalism policy, aksioloji and even philosophical anthropology major and minor events of different nationalities and ethnic groups, regardless of interests between human and moral foundation of human nature has always been strong and has led to the development of all societies. At the same time the problem area aksioloji human and moral, philosophical and socio-political aspects of atropoloji for the multiculturalism program, the key to reject his qaynaqlndıgı philosophy of dialogue, or it is impossible not to life.

People are so serious "questions" philosophy, which meets today called globalization, as always, the main task of the society, hesitate and think of ways to channel the tension in the sensitive coating is applied. At this time in the national history, tradition update and navigation with the world of "dialogue" is very important to build. Grandfathers, fathers, grandmothers oxsasaq, as they neighborliness, friendship and each other's beliefs, traditions, joy, compassion improve the quality of life of modern philosophy in its own right it is to perform mltikulturalism ideas.

Thus, the adoption of multiculturalism as a source of new knowledge, the first human history and culture go back. Families, tribes and ethnic communities, and later in the rest of the small nations, such as the formation, had formed the principles of multiculturalism, multi-culturalism to literature written yet mythological prints, as well as stone monuments is proven. The period of the first people in the history of the problem from this aspect, monuments, petroglyphs, folklore, folk art, and other national and cultural resources contained in the old Turkish family "philosophy of dialogue", as well as the rich tradition of multiculturalism is attracting attention as a research source.

In the world of contemporary articles are presented in many different nations and nationalities, ethnic communities civilized, democratic and legal development strategy to solve the planet who share a common race of human society. religion and language. traditions and so

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

on. psychological, regardless of ethnic tolurantlıq features that characterize the condition of the existence of a free, equal education aims to achieve the philosophy of life and scientific opinion at the same time "philosophy of dialogue," the study of the nature of the problem of cultural diversity is important as a step forward.

**Key Words:** Azerbaijani, Turkish parents, Gobustan rock monuments, dialogue philosophy, multikulturalism.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*Cilt:3/Sayı:9/Ağustos /2016* **ISSN:2148-2292.** *Volume:3/Number:9/August /2016*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

# GİRİŞ

Bu məqalədə müasir elmi fikirdə geniş surətdə tədqiq-təhll olunan bir mövzu dialoq fəlsəfəsi, mədəniyyətlərarası dialoqun tarixi maddi-mənəvi əsasları və meydana çıxardığı multikulturalizm cərəyanından bəhs olunur, "dialoq fəlsəfəsi" problemi Azərbaycan Respublikasının Qobustan ərazisindəki qayaüstü rəsmlərə əsaslanmaqla qədim türk aləsinin fəlsəfi dünyagörüşündə multikulturalizm kontekstində dəyərləndirilir.

Qeyd edək ki, konkret olaraq bu mövzu istiqamətində indiyə kimi elmi tədqiqatlar aparılmamış, əsərlər yazılmamışdır və dünya fəlsəfi fikri gələcəkdə müxtəlif xalqların tarixi irsini, mənəvi mirasını dialoq fəlsəfəsi kontekstində tədqiqatına cəlb edə bilər. Bu baxımdan məqalənin mövzusu bir çox aspektlərdən yeni, orjinal və aktualdır.

## Yeni mədəniyyət nəzəriyyəsi: Multikulturalizm

Fransız dilində işıq mənasını daşıyaraq İngiltərə, Fransa, Almaniya, eləcə də Şərq, Rusiya və ordan start götürərək daha geniş regionlarda yayılmış və müxtəlif terminlərdə (məsələn, Türkiyədə aydınlıq, Ərəb ölkələrində nəhda, Rusiyada və eləcə də bizdə maarifçilik) tərəqqini, mədəniyyət nəzəriyyəsini ifadə edən maarifçilik cərəyanı kimi hazırda multikulturalizm də konkret və aydın formada müxtəlif xalqların dilində çoxmədəniyyətlilik mahiyyətində özünə yer almışdır.

Necə maarifçilik, "Multikulturalizm"in də ilk dəfə "səsləndiyi" region Avropa olmuşdur.Multikulturalizm termini 1970-ci ildə Avstraliyada İmmiqrasiya naziri Al Kresbi tərəfindən işlədilmişdir. Al Kresbi monokulturalizm problemlərini yaşayan Avstraliyada əziyyət çəkən xalq-anglo-saksonlarla yeni avstraliyalılar arasındakı münaqişələrin həlli üçün multikulturalizmi yüksək qiymətləndirrmişdir. Bunun əyani təsdiqidir ki, 1979-cu ildə Avstraliya hökuməti multikulturalizm siyasəti-- Mədəni Müxtəlifliyin Problemləri üzrə Avstraliya İnstitutunu, 1987-ci ildə isə dünyada ilk təşəbbüs hesab olunan "Multikulturalizm Problemləri Komitəsi" qrumunu təsis etmişdir[2]. Ümumiyyətlə, AŞPA 1980-ci illərdən başlayaraq müxtəlif sahələr üzrə mədəniyyətlərarası dialoq probleminin təhlili ilə məşğul olmuşdur. 2005-ci ildə Faro Bəyannaməsi (2005), ondan da əvvəl mədəniyyətlıərarası dialoq konsepsiyası "Opatiya Bəyannamə"-sində müzakirə obyekti kimi diqqətə alınmışdır.

Mədəniyyətlərarası dialoq fəlsəfəsinin əsas prinsiplərindən biri hesab olunan Multikulturalizm ideyası isə konkret olaraq 2008-ci ildə, yəni 2007-ci il Miilliyin Hesabatından sonra Strasburqda Avropa Şurasının Xarici işlər nazirlərinin 118-ci sessiyasında qəbul edilmiş "Ləyaqətlə bərabər hüquqlu birgə yaşama" haqqında Mədəniyyətlərarası dialoqa dair "Ağ kitab"[3]layihəsində konseptual proqram olaraq irəli süülrmüşdür.

---

[2] "XXI əsr ümid və çağırışlar" http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problem-ler/?fid=2258 10-11 oktyabr. 2011.

[3] "Ləyaqətlə Bərabərhüquqlu Birgə yaşama haqqında Mədəniyyətlərarası Dialoqa dair "Ağ kitab" http://www.coe.int/t/dg4/ intercultural/ Source/Pub_White_Paper /WhitePaper_ID_-AzerianVersion. p

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

Əlbəttə mahiyyətcə eyni mənada anlaşılmayan, planetin çox müxtəlif mədəniyyətə malik xalqları, habelə millətləri tərəfindən rahat şəkildə qəbul edilməyən bu yeni dünyavi mədəniyyət nəzəriyyəsi bəşər yaranandan daim aktual olmuş və bütün cəmiyyətlərin tərəqqisinə və eyni zamanda (müasir anlamda "antietika" hadisəsi baş verdikdə) süqutuna gətirib çıxarmış fəlsəfənin əsas sahəsi insan və əxlaq problemindən qaynaqlanaraq irqindən, dinindən, dilindən, adət-ənənəsindən asılı olmayaraq bütün bəşəri əhatə etdiyi üçün onu rədd etmək, yaxud onsuz yaşamı seçmək nə psixoloji, nə sosial-siyasi, nə də mədəniyyət baxımından mümkün deyildir.

Ona görə də dialoq fəlsəfəsinin mədəniyyətlərarası dialoq-əlaqə prinsiplərini, çoxmədəniyyətlilik, mədəni müxtəliflik ənənəsini özündə dolğun şəkildə əks etdirən milli tariximizə diqqətli baxış müəyyən fikri anlaşılmazlıqları aradan qaldırmağımıza təsir baxımından böyük əhəmiyyət kəsb edir.

Beləliklə məqalənin əsas mahiyyətini belə izah edə bilərik ki, milli-etnik, mifoloji abidələrdən folklor qaynaqlara, klassik yazılı ədəbiyyatdan çağdaş ədəbi-bədii və ümumiyyətlə estetik şüurun bütün formalarına qədər hər bir sənət sahəsində tarixi mədəniyyətini ifadə etmiş Azərbaycan xalqının bu günki anlamda "dialoq" təsəvvürləri dərin məzmun daşıyır və mövzunun öyrənilməsi ilk növbədə qədim türk ailəsinin tarixi mədəniyyət abidələri vasitəsi ilə əjdadlaımızın mədəniyyətlərarası dialoq şüurunu,onların çoxmədəniyyətlilik xüsusiyyətltini elmi surədə əsaslandırmaq, diqqəti dünyanın müxtəlif ölkələrində, xüsusən qədim Fransa, İspaniya, Misir habelə oxşar ərəb xalqlarının miniilər əvvəl yaratmış olduqları müxtəlif tarixi abidələr, qayaüstü rəsmlər kimi tarixi mədəniyyət xəzinəsinə yönəldərək müasir insan cəmiyyətlərini kökdə iz salmış dialoq fəsəfəsi ilə maraqlandırmaq,yaddaşı yeniləmək, eyni zamanda elmi fikirdə bu konteksdə araşdırmalara istiqamət vermək baxımından zəruridir.

## Qobustan qayaüstü abidələrinin "dialoq" fəlsəfəsi

Üst poleolit dövrünün, 15000 il əvvəlin tarixi abidəsi Qobustan qayaları üzərindəki rəsmlər, yazılar sözsüz olaraq Azərbaycanda hələ minillər əvvəl, ilkin bəşər dialoq mədəniyyətinin yaranıb təşəkkül tapdığını təsdiq edir.

Əvvəlcə qeyd edək ki, Qobustan hadisəsinin dövrü ilə bağlı akademik elmi ədəbiyyatda onun həm üst (bəzi mənbələrdə yuxarı,. orta sözləri də işlədilir) poleolit , həmçinin də mezeolit dövrünə aid olduğu göstərilir. Lakin deməliyik ki, Qobustanın poleolit dövrünə aid olduğunu əsaslandıran tədqiqatçılar daha çoxdur. Məsələn, Qobustanı tədqiq etmiş ən mötəbər alimlər Cəfərqulu Rüstəmov, Firuzə Muradova həmmüəllif olduqları "Qobustan, Kiçik daş dağı abidələri"[4] kitabında "30 ildə Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqatların nəticələri göstərir ki: 1. Qobustanda yaşayış və qayaüstü təsvirlərin çəkilməsinin tarixi çox-çox qabaqlardan - üst paleolitdən başlamışdır"- yazırlar və bu istiqamətdəki tədqiqatlarda onu mezeolit dövrünə aid edən düşüncələri kölgədə qoyan keçərli dəlillər göstərirlər: " «Qayaarası»ndan və «Anazağa» düşərgəsinin alt təbəqəsindən yuxarı paleolit tipli dağ alət

---

[4] Cəfərqulu Rüstəmov, Firuzə Muradova Qobustan, Kiçik daş dağı abidələri. E.L. Nəşriyyat və Polqrafiya mərkəzi, Bakı,2008.316 səh. http://turuz.com/index/view/f0a5c6885243e16f97854e6cfc700afc565c8758

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

nümunələrinin tapılması, eləcə də qədim qadın təsviri tiplərinin bütün Qobustanda yalnız Böyükdaş və Kiçikdağ dağlarının örtük daşları altındakı «Qayaarası» və «Anazağa» düşərgələri daşları üzərində saxlanması, Qobustan ərazisinin, xüsusən, göstərilən dağlar ətrafı və dənizkənarı zolağın bu günki təbii şəraitdə, nəinki son paleolit, hətta mezolit və neolit dövründə də yaşayış üçün əlverişsiz olması bizi düşünməyə sövq etdi. Görünür, yuxarı paleolit dövründə Qobustanda yaşayış yalnız Kiçikdaş dağında «Qayaarası» və «Qayaarası-2» (alt təbəqə), Böyükdağ dağında isə «Anazağa» və onun ətrafında olmuşdur. Ola bilsin ki, sonradan Xəzər dənizinin səviyyəsi son xvalin geoloji dövründə qalxmış, göstərilən dağların ətraf ərazilərini basmış və torpağı şoranlaşdırmışdır. «Qayaarası»nda həndəsi formalı alətlərin (üçbucaq, trapes və seqmentlərin)olması yuxarı paleolit üçün gözlənilməz sayılmamalıdır (32). Bu vəziyyətə Krasnodar ölkəsindəki Satanay düşərgəsində də təsadüf olunur (33). Çünki Qafqazda yuxarı paleolit və mezolit dövrləri arasında birindən o birinə keçid fərqi olduqca şərti baş verir (34)”[5].

Diqqət etdikdə görürük ki. bu tədqiqatçılar bu ərazinin tarixinn hətta nəinki mezeolit, yuxarı poleolitdən də əvvələ gedib çıxdığı elmi-obyektiv qənaətindən çıxış edirlər.

Tarix etibarilə çox yeni və ciddi nəşr əsərlərindən biri “Qobustan minilliklərin kitabı”[6]-nda da ”Abşeron yarımadasında, Bakıdan 60 kilometr aralıda Qobustan Milli tarix-bədii qoruğu yerləşir. Buradakı abidələr üst paleolitdən tutmuş son orta əsrlərə qədər uzanan böyük tarixi dövrü əhatə edir” –kimi Qobustan abidəsi mezeolit dövründən əvvələ, yəni üst paleolit dövrünə aid edilir.

Buna çox misallar gətirmək olar. Qobustan sözünün özüdən tutmuş burada yaşamış türk əjdadlarımızın varlığını təsdiq edən gerçək maddi-mənəvi faktlar haqqında da qısa məlumat vermək fikrimizcə beynəlxalq elmi ictimaiyyət üçün maraqlı olar.

Qobustan sözü türk və fars dillərində bir neçə fikri ifadə edir. Türk dilində Kobu(stan-diyar) yarğan, yəni yarımsəhra, faraca Gavistan-(gavi - öküz) öküzlər diyarı, öküzlər məskəni mənasnı verən Qobustan sözü qədim türk insanının ilk məskəni və məşğuliyyəti haqqında izləri özündə birləşdirir. Qobustanın oda sitayiş(kəbr) edənlərin məskəni kimi də mənalandırılması faktları da vardır. Lakin Azərbaycan ərazisində “kəbrstan” ifadəsinin məzarlıqlar anlamında qəbul edildiyini nəzərə aldıqda fikrimiz haçalanır və biz diqqətimizi Qobustan qayaüstü rəsmlərinə cəmləməklə sözün türk mənşəli izahında qərar tutub dayanırıq. Çünki qayaüstü rəsmlərin “dili” daha çox dənizdən xəbər verir və bu ərazinin çöl öküzlərinin məskəni olmasından artıq yarımsəhra, yarğanlar təbiəti məntiqi səslənir. Eyni zamanda Qobustanın sözünün özü kimi ərazinin də qədim türk məskəni olduğu təsdiqlənir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dərc etdiridiyi yuxarıda iqtibas gətirdiyimiz “Qobustan minilliklərin kitabı”nda Qobustanın ilk sakinlərinin qədim türk əjdadlarımız olduğunu təsdiq edən tutarlı dəlillərlə də qarşılaşırıq. Bu isə artıq bizim məqalədə təhlilinə maraqlı olduğumuz problemin öyrənilməsinin əsaslılığını sübut edir.Məsələn, kitabdan oxuyuruq: ”Qobustana baş çəkən hər kəsi düşündürən sual onun ilk sakinlərinin – protoazərbaycanlıların (qədim türk ailəsi insanı-X,Q) yəni xarici görünüşünün necə olmasıdır. Sistemli arxeoloji qazıntılar başlamadan öncə xeyli sayda fərziyyə irəli sürülürdü. Hazırda arxeoloqların tapıntıları və antropoloqların tətdiqatları nəticəsində müəyyən olunmuşdur ki, onların arasında həm braxitsefallara, yəni kəllə sümükləri dəyirmi olanlara, ham də dolixotsefallara, yəni kəllə sümükləri uzunsov olan insanlara rast gəlinirdi. Dolixotsefallar bütün

[5] Yenə orada.
[6] Qobustan minilliklərin kitabı, Dubai,IRS Publishing House 2014. http://ebooks.azlibnet.az/book/10nat090316.pdf”

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

irqlərdə və xalqlarda mövcuddur, bəzilərində nadir hallarda rast gəlinsə də, bəzilərində, əksinə, üstünlük təşkil edərək, bütün irq qrupunu səciyyələndirir”[7].

Digər bir misal, arxeoloq Kərəm Məmmədov bu məsələni “Qafqazın əsl sahibləri.Möhtəşəm tarix”[8]adlı məqaləsinin **“**Türk kafası - dolixokefal” yarımbaşlıq hissəsində Qobustanda məhz türk əjdadlarımızın yaşadığını antropoloji kontekstden geniş izah edərək yazır: ” ...tarixin özünün köməkçi fənləri var, lap zirvədə duran və faktları danılmaz olan sahələr var. Məsələn, antropologiya. Bəs antropologiya elmi nəyi deyir? Dünya xalqları baş quruluşuna görə 3 qismə ayrılırlar: dolixokefal, mezokefal və braxikefal. Bunlar baş ölçüsünə əsaslanan sistemdir, İsveç alimi Retsius tərəfindən kəşf edilib. Retsiusun xüsusi pərgarı var idi. Başın əvvəl eni, sonra uzunu ölçülürdü. Başın eninin uzununa nisbətinin 100-ə vurulması nəticəsində alınan rəqəm baş indeksi adlanır. Əgər alınan rəqəm 76-dan azdırsa, bu cür baş quruluşuna “dolixokefal kəllələr” deyilir. 76-80.9-a qədərdirsə, bu başlar “mezokefal” adlanır. 81-dən yuxarı olanlara isə “braxikefal” deyirik. Bəs Altay xalqları yaşayan regionda bu təsnifat necədir? Məsələn, Cənubi Qafqazdan tapılan ilk “homo sapiens” Firuz düşərgəsindən aşkar edilən, yəni Qobustandan tapılan insan kəllələridir. 11 kəllə sümüyündən ikisini ölçmək mümkün olub. Məlum olur ki, baş quruluşuna görə, bu adamlar “dolixokefal”dırlar. Sonrakı mərhələdə Neolit dövrü abidələrindən Çiatura yaxınlığından tapılan kəllə “broxikefallığa” meyllidir. Qalan bütün tapıntılar isə “dolixokefal”dır. Kür-Araz mədəniyyəti dövründə tapılan bütün kəllələr öz baş quruluşuna görə “dolixokefal”dırlar. Qəribə burasıdır ki, hayların Qafqazda qədim xalq olduğunu daima gözə soxmağa çalışan Valeri Pavloviç Alekseyev özü də etiraf edir ki, “dolixokefal” kəllə quruluşuna malik insanlar türklərdir”[9].

Alim fikirlərinin davamında bütün Azərbaycan ərazisində türk mənşəli xalqların kütləvi olduğunu sübut edən başqa misallar da gətirir. O göstərir ki, “Türkləri çox vaxt nədə qınayırlar? Deyirlər, guya türklər köçəri maldar olublar və Altaylardan iki istiqamətdə Şərqə doğru irəliləyiblər. Bir istiqamət Volqaboyu istiqaməti olub, ikinci istiqamət isə Xəzər dənizinin güneyi olub. Və onlar getdikləri bölgələrdə mədəniyyət qura-qura gedirlər. Və sonda biz nə ilə rastlaşırıq? Görürük ki, Afanasyevo və Andronovo mədəniyyətlərinin qurucuları ilə Cənubi Qafqazdakı mədəniyyət qurucularının kəllə indeksləri eynidir. Və “Yamnaya kultura” deyilən bir şey var, yəni Çuxur mədəniyyəti. Bu mədəniyyətin yayılma arealı Sibirə qədər gedib çıxır. Sibirdə biz nə ilə rastlaşırıq? Pazrıq kurqanlarından tapılan xalçalardakı şəkillərlə. Ruslar özləri də etiraf edirlər ki, şəkildəki adam antropoloji cəhətdən qafqazlıdır”[10].

Bu baxımdan tarixi minilliklərə söykənən Qobustan ərazisində türk əjdadlarımızın yaşaması sübut olunur və onların sonralar millət və xalq olacaqları məntiqi ardıcıllığına

---

[7]Qobustan minilliklərin kitabı, Dubai,IRS Publishing House 2014. **http://ebooks.azlibnet.az/book/10nat090316.pdf**

[8]Məmmədov Kərəm “Qafqazın əsl sahibləri.Möhtəşəm tarix” Axar.az. http://axar.az/news/87387

[9] Yenə orada.

[10]Məmmədov Kərəm “Qafqazın əsl sahibləri.Möhtəşəm tarix” Axar.az. http://axar.az/news/87387

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*Cilt:3/Sayı:9/Ağustos /2016* **ISSN:2148-2292.** *Volume:3/Number:9/August /2016*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

söykənərək qayaüstü abidələrdə əks olunmuş, bizə-gələcək nəsillərə onları tanımaq, "oxuyub, əxz etmək üçün" qoyub getdikləri dəyərli daş kitabələr ilk növbədə böyük bir toplumun həyat tərzini, dünyagörüşlərini öyrənməyə əsas verir. Bu "oxunanlardan" biri də əlaqə, dialoq – münasibətləridir ki, qənaətimizə görə mövzunun öyrənilməsi üçün mənəvi olduğu qədər, elmi əsaslar mövcuddur və biz təqdim etdiyimiz məqalədə bu problemi araşdırmağa çalışacağıq.

Heçdə təsadüfi deyil ki,"... imperator Domisianın hakimiyyəti zamanı (eranın 81-96-cı illəri) Roma legionu Azərbaycanda olmuş, Qobustan ərazisinə qədər gəlib çıxmışdır. Çox güman ki, qədim romalılar Qobustana valeh olmuş, öz tarixlərindən də bu qeydləri daş kitabələrə həkk etmişlər[11] .

Əlbəttə ki, bu səyahətlər zamanı çoxmədəniyyətliliyin əsasını təşkil edən ənənələrin varlığı və habelə prinsipləri yaranıb formalaşmış. yerli qəbilələrlə gəlmələr arasında ünsiyyət, münasibətlər, daha aydın desək mədəniyyətlərarası dialoq kök salmışdır.

Bu fikirlərimizi uzun illər boyu Qobustan "əfsanəsi" ilə tanış olmağa və xüsusən də tarixi mədəniyyət svilizasiyası abidəmizi tədqiq etmək üçün Azərbaycana gəlmiş məşhur dünya alimləri ciddi elmi-obyektiv və məntiqi qənaətləri ilə sübuta yetirmişlər. Məsələn, 1981, 1994-cü illərdə Qobustanda ekspedisiyalar təşkil etmiş, qədim nəqliyyat hadisəsinin fenomen tədqiqatçılarından hesab olunan tanınmış Norveç alimi, antropoloq-etnoqraf Tur Heyerdal heyrətini gizlədə bilməmiş "Bax, mən təslim. Bu qaya təsvirləri dünya mədəniyyət beşiklərindən olan beynəlnəhrdən də qədimdir. Görünür, Azərbaycan da belə qədim ocaqlardan olub. Bu yadigarlardan sonra şübhələnməyə dəyməz"-demişdir[12].

Həmçinin də Pasxa, Qalapaqos. Kanar adalarını kəşfləri ilə, öz kəşflərini sübua yetirmək üçün əfsanəvi cəsarətlə Sakit okeanı, Atlantik okeanı sal üzərində üzüb keçən Tur Heyerdal Qobustan abidələrindən çıxış edərək "Azərbaycanın hələ kifayət qədər öyrənilməmiş mədəniyyət və incəsənəti Mesopotamiyanınkından qədimdir"[13] –kimi ciddi elmi nəticəsini "Odinin axtarışları ilə" adlı kitabında ifadə etmişdir[14].

Bundan başqa məşhur səyyah qədim qaya təsvirlərinə əsaslanaraq bu təsvirlərdə qədim Skandinaviya xalqlarının və ingilislərin mədəniyyəti arasında uyğun cəhətlər olduğunu görmüşdür[15].

Norveç aliminin qeyd edilən nəticələri "dialoq fəlsəfəsi"-mədəniyyətlərarası münasibətlərin tarixi köklərinə güclü işıq salması baxımından da ciddi maraq doğurur.

Məhz bundan irəli gələrək Qobustan qayaüstü mədəniyyət abidələri həm də dünyagörüşü hadisəsi kimi dəyərlidir və gələcəkdə ciddi fundamental əsərlərin movzusu ola bilər.

## Fəlsəfi dialoq-mədəniyyətlərarası əlaqə

İlk əvvəl "içindəki" səslə dialoqa girən, ağlının, ürəyinin səsini dinləyib hərəkət edən, əslində bütün yaşamını bu "səslə" dialoqu əsasında quran qədim Qobustanlılar, zaman-zaman "mən və sən" dialoq münasibətlərini maddi tələbatları qida əldə etmək, məsələn, "sən"

---

11Cavid Kszımov. Dövlət, etnogenez və dilimizin mənşəyi məsələlərinin qoyuluşu-http://www.uludil.gen.az/3_fesil_001.html

12 Qobustan abidələri. http://kayzen.az/blog/azerbaycan/5247/qobustan-abid%C9%99l%C9%99ri.html

13Cavid Kszımov. Dövlət, etnogenez və dilimizin mənşəyi məsələlərinin qoyuluşu-http://www.uludil.gen.az/3_fesil_001.html

14 Yenə orada

15 Yenə orada.

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

obrazında dənizlə, içməli su ehtiyatı üçün qayalarla, təbiətin özəllikləri yağış, tufan və s. qorunmaq üçün mağaralar üzərində düşünmüş, daha sonra "mən-sən-biz" əlaqələrini yaradıb inkişaf etdirmişlər.

"Biz" dialoqu onlara dənizlə daha böyük dialoqlar – qarşıdakı sahillər və buradan da haçalanan yeni-yeni "sənlər" və eləcə də "bizlər"-lə dialoqun müxtəlif formalarını meydana çıxarmaq imkanı vermişdir.

Bunun məntiqi nəticəsi olaraq da Qobustan qayaüstü qalereyası dünyanın Afrika, Fransa. İspaniya və başa bir sıra ölkələrindəki "dilsiz dialoq"a girən qaya təsvirlərindən tarixən daha qədim, hətta fəlsəfəsi baxımından daha mükəmməl hesab edilir.

Üst Poleolit dövrü insanlarının dünya, kainat, eləcə də dəniz və "uzaq sahillərdəki" insanlarla əsl fəlsəfi dialoqunun təcəssümü olan Qobustan ərazisindəki qayaüstü 5000-ə yaxın çox mənalı və cazibədar abidədə- petroqliflərdə əcdadlarımızın həm də tərəqqi dialoqu əks olunmuşdur.

Məsələn, qədim insanlarımızın böyük sənətkarlıqla təsvir etdikləri 100-dən çox qayıq təsvirləri bir tərəfdən onların mədəniyyətlə-sənətkarlıqla "dialoq"larını, digər tərəfdən tərəqqiyə,inkişafa can atma hissini ifadə edir.

Diqqət etsək,biz burada inteqral əlaqələrin daha əsaslı etaplı tarix izlərini görə bilərik. Ehtimal ki, qədim Azərbaycan insanları öz dəniz nəqliyyat növü qayıqlarlarını dənizlə daha davamlı dialoqları üçün təkmilləşdirməyi düşünərək onların müxtəlif və təkmil formalarını əldə etmişlər.

Bu təkmil formalı, davamlı xarakterli qayıqlar mahiyyəti baxımından dialoq təsəvvürlərinin bir forması kimi də maraq doğurur. Çünki getdikcə keyfiyyətini artıran bu qayıqlarla daha uzaq məsafələr qət etmək mümkün ola bilərdisə, bu artıq əjdadlarımızın dünyaya inteqrasiyasından, mədəni müxtəliflik sferasına daxil olduqlarından və deməli bu gün bizim təhlilinə maraqlı olduğumuz multikulturalizm ənənələrinə sahib olduqlarından xəbər verir.

Aşağıdakı bir iqtibasdakı fikirlər bu düşüncəmizi təsdiq edə bilər. "Qobustan qayalarında yüzdən artıq qayıq təsviri var. Formasına görə, bu qayıqları üç qrupa bölürlər: ...İlk qayıqlar əsasən ağac gövdəsindən düzəldilmiş, kiçik ölçülü və təknəşəkilli olmuşdur. Belə qayıq təsvirləri Böyükdaş və Kiçikdaş dağlarının ətəyindəki daşlar üzərində daha çoxdur. Qayalara döyülmüş kölgəvari, enli gövdəli qayıq təsvirləri ikinci tipə daxildir. Qamışdan və qarğıdan hazırlanmış qayıqlar isə e.ə. VII-VI minilliklərə aid edilir. Qədim insanlar bu qayıqlarla balıq ovuna çıxardılar. Böyükdaşa həkk olunmuş balıq təsvirləri bu baxımdan maraqlıdır. 29 saylı qayadakı səhnə təxminən belə oxunur: qayıq səfərdən uğurla qayıdıb. Sahildəki adamlar sevinclərini, şadyanalıqlarını rəqs edərək bildirirlər"[16].

Mənbə Qobustan qayalarının üzərindəki qayıqların əcdadlarımız üçün yuxarıda qeyd etdiyimiz kimi dünyaya çıxışlarının ifadəsi əhəmiyyətini çox doğru olaraq belə şərh edir: "Qayıq təsvirləri təkcə ovçuluğu deyil, həm də dənizçiliyin tarixi, su-nəqliyyat vasitələrinin tarixini öyrənmək baxımından olduqca dəyərlidir"[17] .

Qobustan qayaları üzərindəki əfsanəvi açıq sənət qalereyasından yerli insanların həm də kainatla dialoqu oxunmaqdadır. Qayıqların ön-burun hissəsində Kainatın əbədi varlığı Günəşin təsvir olunması, fikrimizcə onların əməklə, zəhmətlə dialoqu qənaəti ilə bərabər, eyni zamanda "Günəşli Azərbaycan" biliyinin tarixinə və mahiyyətinə işarə olaraq əhəmiyyət kəsb

[16] Qobustan abidələri. http://kayzen.az/blog/azerbaycan/5247/qobustan-abid%C9%99l%C9%99ri.html
[17] Yenə orada

Akademik Tarih ve Düşünce Dergisi
Cilt:3/Sayı:9/Ağustos /2016
ISSN:2148-2292.
Academıc Journal of History and Idea
Volume:3/Number:9/August /2016
АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ

Makale Başvuru Tarihi:14/06/2016
Makale Yayına Kabul Tarihi:20/08/2016

edir.

Fəlsəfi baxımdan qayıqların bizimlə dialoqundan alınan məlumatlar bəşər övladının bir-biri ilə "mən və sən", "biz və onlar" dialoqunu önə çəkir.

Qobustan qayaüstü təsvirlərində diqqəti çəkən insan rəsmləri, onların fiqur quruluşu da əjdadlarımızın dialoq yaşam fəlsəfəsinin rəngarəng tablosunu təsəvvürə gətirir.

Ehtimal ki, –sıralanan və əl-ələ vermiş formada olan insan şəkilləri birliyin, deməli artıq qazandıqları dialoqun sevincini ifadə edir. Qədim Azərbaycan xalq rəqsimiz "Yallı" nın quruluşunu xatırladan rəsmlərdə gizlənən tarixi həqiqətlərdən biri də fikrimizcə yerli millətin öz yaratdığı "qayıqlarla"uzaq –yaxın sahillərdən tapdığı insanlarla ünsiyyətinin də ifadəsi ola bilər.

Xalqımızın estetik şüurunun zəngin çalarlarını, dünyanı dərkini, həyata baxışını dolğun şəkildə təmsil edən xalçalarımız da dialoq fəlsəfəsi ilə uzlaşır.

Zəngin Azərbaycan təbiətinin yetirdiyi rəngbərəng bitkilərin suyuna boyanmış sapların yaratdığı möcüzə həm insanın təbiətlə, həm də dünya ilə dialoquna bir nümunədir. Qədim Azərbaycan xalçalarının 100 illər əvvəl dünyanın müxtəlif tarixi muzeylərində aşkarlanması faktları da tarixi dialoqdan və dialoqun tarixindən xəbər verir.

Bu sırada xalq musiqimiz, muğamlarımız, qədim el dastanlarımız və ümumiyyətlə zəngin milli ruhlu əsərlərimizdən çox misallar gətirmək olar.

Beləcə genetik varlığında, tarixi yaddaşında ünsiyyət, əlaqə, deməli dialoq marağı olmuş qədim türk ailəsi üzvü Azərbaycan insanı svilizasiyaların davamında həm bu mirası. Həm də ona hopmuş mənəvi-psixoloji xüsusiyyətləri qorumuş, inkişaf etdirmiş və gələcək nəsillərə ötürmüşdür.

Azərbaycan cəmiyyəti daxilində müxtəlif qəbilələrin, tayfaların, etnik qrupların arasındakı qarşılıqlı hörmət, inam, dostluq hissləri məhz dədələrimizin, babalarımızın qan-yaddaş izlərinin ifadəsi hesab olunmalıdır. Dövrbədövr bu qanla ötürülən dialoq körpüsünü nəsillərimiz möhkəmləndirərək bütöv bir çoxmədəniyyətlilik şəraiti formalaşdırmışdır. Buna görə də məsuliyyət hissi ilə deyə bilərik ki, müasir Azərbaycanın zəngin çoxmədəniyyətlilik – multikulturalizm ənənələrinin əsası hələ Qobustan abidələri və əjdadlarımızın digər tarixi mifik təsəvvürləri ilə qoyulmuşdur.

Heç də təsadüfi deyil ki, görkəmli tarixi şəxsiyyət, Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev bu ideyanı – çoxmədəniyyətli cəmiyyət mahiyyətində Azərbaycançılıq məfkurəsi kimi qəbul edib irəli sürmüş, öz dövlət idarəçiliyi siyasətində inkişaf etdirmişdir. H.Əliyev "Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir Azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı- Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"[18] fikirlərini bütöv bir mədəniyyət hadisəsi olaraq tarixən bir ərazidə yaşayan xalqların birləşdiyi yaşam fəlsəfəsi ənənəsi məzmununda fundamental surətdə təcrübəyə tətbiq etmişdir.

İndi Azərbaycanda əsasında çoxmədəniyyətlilik prinsiplərinə əsaslanan dialoq fəlsəfəsi daha yeni aspektdə, yəni mədəni müxtəliflik, multikulturalizm kontekstində həyata keçirilir.

Ulu öndəri Heydər Əliyevin həqiqi və siyasi varisi, Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin böyük Azərbaycançılıq məfkurəsini çoxmədəyyətlilik konsepsiyası ilə daha da möhkəmləndirərək tarixə həkk etdiyi yeni məzmunlu tərəqqi proqramı bu gün bütün dünyada əks-səda doğurmaqdadır.

[18] Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, 2002, BDU nəşriyyatı. Səh.10.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academıc Journal of History and Idea*
*Cilt:3/Sayı:9/Ağustos /2016* **ISSN:2148-2292.** *Volume:3/Number:9/August /2016*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

Cənab İ.Əliyev bu mövzuya həsr olunmuş tarixi bir nitqində də vurğuladığı kimi ”Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması artıq faktdır və bu, bizim güc mənbəyimizdir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Biz tam əminik ki, dini və milli amildən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür. Əlbəttə, bunun üçün ənənələr lazımdır, eyni zamanda, dövlət siyasəti də lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur. Həm tarixi keçmişimiz bugünkü şəraiti bizim üçün yaradır, həm də bu sahədə dövlət siyasətimiz birmənalıdır. Bir daha demək istəyirəm ki, bizim gücümüz birliyimizdədir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər bir kəs bizim dəyərli vətəndaşımızdır. Mən şübhə etmirəm ki, Azərbaycanda milli və dini dözümlülük məsələləri bundan sonra da uğurla öz həllini tapacaq, Azərbaycan vətəndaşları bundan sonra da bir ailə kimi yaşayacaqlar”[19].

Bu baxımdan hər bir dövrün öz inkişaf strategiyasına uyğun olaraq öz milli tərəqqisinə doğru addımlayan Azərbaycan cəmiyyətində bir elm, həmçinin siyasət, yaşam tərzi və yeni fəlsəfə kimi qəbul edilən dialoq – çoxmədəniyyətlilik hadisəsi milli-etnik, mifoloji abidələrdən folklor qaynaqlara, klassik yazılı ədəbiyyatdan çağdaş ədəbi-bədii irsə qədər , o cümlədən türk ailəsi tarixi mədəniyyətinin bu günki anlamda məzmun və əhəmiyyət kəsb edən “dialoq” təsəvvürlərinin həkk olunduğu Qobustan qayaüstü abidələrində **və** ümumiyyətlə estetik şüurun bütün sahələrində diqqətlə izlənilir, dəyərləndirilir.

[19] Azərbaycan Respublikasının Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. 07-09 aprel 2011-ci il. http://president.az/articles/1845

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

## NƏTİCƏ

Azərbaycan ərazisində yerləşən qədim əjddlarımızın məskəni Qobustan Dövlət Tarixi-Bədii Memarlıq Qoruğunun (2007), habelə "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunun dünyanın cəmi 800 abidəsini qəbul etmiş UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi bir daha müasir anlamda dialoq fəlsəfəsi kimi səslənən dünyəvi insan-əxlaq münasibətləri sistemində ənənə və novatorluğun dinamik inkişafından xəbər verir.

Məhz bundan irəli gələrək Qobustan qayaüstü mədəniyyət abidələri həm də dünyagörüşü hadisəsi kimi dəyərlidir və gələcəkdə ciddi fundamental əsərlərin movzusu ola bilər.

Beləliklə hər bir svilizasiyanın, tarixi dövrün fəlsəfə elmi öz keçmişinə tarixin süzgəcindən keçmiş mövzuları təkrar tədqiqata cəlb etməklə yenidən qiymət verərkən ilk növbədə problemə işıq salan qaynaqları öyrənib dəyərləndirməlidir. Bu kontekstdə Azərbaycan ərazisində yerləşən qədim insan-əxlaq-mədəniyyət dialoqu sahəsi Qobustan Dövlət Tarixi-Bədii Memarlıq Qoruğunun qayaüstü abidələri - petroqlifləri böyük əhəmiyyət kəsb edir və gələcəkdə dünyanın bir çox bölgəsində rastlaşılan tarixi qayaüstü abidələrlə Qobustan rəsmləri, ümumiyyətlə Qobustan dünyagörüşü hadisəsi fənlərarası münasibətlər istiqamətində müqayisəli şəkildə fundamental surətdə tədqiqata cəlb olunmalıdır.

ISSN:2148-2292.


Makale Başvuru Tarihi:14/06/2016
Makale Yayına Kabul Tarihi:20/08/2016

## İstifadə olunmuş ədəbiyyat

Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi, 2002, BDU nəşriyyatı (örnek) Bakı

QULİYEVA, Xatirə, 2000, Azərbaycanda maarifçi estetika, Elm, Bakı

.............................. 2012, Maarifçilik dövrü fəlsəfi fikrində etika məsələləri, AMEA FSHİ, Elmi Əsərlər,№2(19), Bakı

............................... 2002,Heydər Əliyev və mənəvi-estetik dəyərlər,Azərnəşr, Bakı

...............................,2009,H. "Fransız egitimçiligi ve onun evrensal özellikleri" seh.110-112. Turan № 3-. ümum.

.................................,2009, "Dunya milli kültür kuramı ekseninde Azeraycan egitm ve sosyal bilimlerinn aşındakı yer" seh.99-106. Trikbilm. №1.. ümum. səh.199.

..................................."Türkiye ve diger Şark ölkelerinde Aydınlanmanın evremsel özellikleri", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin (29-30 sentyabr) Bakı Beynəlxalq Humanitar Forumunda nitqi http://www.bakuforum.org/

"XXI əsr ümid və çağırışlar" http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258 10-11 oktyabr. 2011.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqi. http://azertag.azxeber/Prezident_Ilham_-Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878

Azərbaycan Prezidenti İlham Əliyevin "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda nitqi*18 may 2015* http://president.az/articles/1845

Azərbaycan Respublikasının Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. 07-09 aprel 2011-ci il. http://president.az/articles/1845

2011-ci ilin 10-11 oktyabr tarixlərində keçirilən "XXI Əsr: ümid və çağırışları" adlı forum http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258

Ləyaqətlə Bərabərhüquqlu Birgə yaşama haqqında "Mədəniyyətlərarası Dialoqa dair "Ağ kitab" "http://www.coe.int/t/dg4/ intercultural/ Source/Pub_White_Paper /WhitePaper_ID_-AzerianVersion. P

KAMAL, Abdullayev, http://www.azerbaijan-news.az/index.php?mod=3&id=45058

Qobustan abidələri. http://kayzen.az/blog/azerbaycan/5247/qobustan-abid%C9%99l%C9-%99ri.html

Qobustan minilliklərin kitabı, Dubai,IRS Publishing House 2014. http://ebooks.azlibnet.az/book/10nat090316.pdf

RÜSTƏMOV, Cəfərqulu, Firuzə Muradova Qobustan, Kiçik daş dağı abidələri. E.L. Nəşriyyat və Polqrafiya mərkəzi, Bakı,2008.316 səh. http://turuz.com/index/view/f0a5c6885243e16f97854e6cfc700afc565c8758

MƏMMƏDOV, Kərəm "Qafqazın əsl sahibləri.Möhtəşəm tarix" Axar.az. http://axar.az/news/87387

KAZIMOV, Cavid . Dövlət, etnogenez və dilimizin mənşəyi məsələlərinin qoyuluşu- http://www.uludil.gen.az/3_fesil_001.html

*Makale Başvuru Tarihi:14/06/2016*
*Makale Yayına Kabul Tarihi:20/08/2016*

TUNCAY, Bəxtiyar, Oğuz mədəniyyətinin mezeolit dövrünə aid izləri .https://bextiyartuncay.wordpress.com/2013/12/13/oguzm%C9%99d%C9%99niyy%C9%99tinin-mezolit-dovrun%C9%99-aid-izl%C9%99ri/